*Mənbə: Üzeyir Hacıbəyovun Ev Muzeyi, Bakı. Direktor Səadət Qarabağlı.*
*Üzeyir Hacıbəyovun irsinə həsr olunmuş HAJİBEYOV.com saytı.*
*© 2001 Azerbaijan İnternational*
*Mətnin yığılması: Fəridə Sadıxova*
*Vebmaster: Arzu Ağayeva*

Nuri-didə Ceyhun!

Salam-duadan sonra elan əhvalatı xüsusunda səndən və Orucovlardan əhval gözləyirəm. Amma heç birinizdən cavab yoxdur. Əlbəttə, sən bu barədə Orucovlar və Haşım (Vəzirov) ilə görüş, danış və mənə əhval yaz. Vaqedə əgər (həqiqətən) bu işin dalına düşülsə, bir şey olar. Qəzet idarələri mənə kartoçka ilə bərabər qəbz kitabları göndərməlidirlər.

Bir də bundan belə mən sizə gündə və ya günaşırı buradakı dolanacağımızı yazıb göndərəcəyəm. Əlbəttə, o kağızları itirməyib, verərsən Camala ki, saxlasın. Çünki gələcək üçün mənə lazım olacaqdır.

Dekabr ayının pulunu almamışdan qabaq bizim əhvalımız çox pərişan idi. Çünki ev sahibi ilə bərabər çörək yediyimiz yerin pullarını verməmişdik. O idi ki, hər gün yolmiyyə (hər gün) ev sahibi cuhud qapımızı döyüb, əlləri cibində içəri girərdi və pul istəyərdi. Biz də cavabında deyərdik ki, yəgin bu gün bizə pul gələcəkdir. Cuhudun bu cürə gündəlik ziyarətinə öyrənmişdik. Ona görə çox da qısılmırdıq.

Amma bir gün mən bazardan evə qayıdıb musiqi dərsimə məşğul idim. Məleykə dəxi öz dayısı qızı Əminə ilə bərabər onun yoldaşı Zahidəyə dərs verirdi (bu qızlar hər gün bizə gəlib Məleykədən dərs alırlar), bir də gördüm ki, cuhudun bədsifət olan arvadı başını qapıdan içəri soxub çığıra-çığıra dedi ki, bəs nə vaxt pul verəcəksiniz? Hər gün bizə sabah-sabah deyirsiniz!

Mən dərhal bayıra çıxıb arvada dedim ki, sənin ixtiyarın yoxdur ki, özgələrin yanında məndən pul istəyəsən və bir neçə ağır söz deyib içəri girdim. Gördüm ki, Məleykə qızların yanında bu cürə hərəkətdən məcbur (pərt) olub, bilmir ki, nə təhər ilə aralığa söz salsın. Mən özüm də çox pis oldum. Əhvalım xarablaşdı. Hərgah bir adam olsaydı, ondan pul alıb cuhudun pulunu verərdim. Özlərini də doyunca söyüb, sonra çıxıb özgə yerə köçərdik. Amma heyif ki, o cürə adam Moskvada yox idi.

Gumanım gələn bir Xudadad idi. O da Qarabağda idi. Bir nəfər də iranlı (Bakı tanışım) Məhəmməd Sadıq Əliyev idi. Amma mən bilirdim ki, onun da pulu yoxdur. Çünki mən ona bir manat borcluyam. Neçə gün qabaq yanıma gəldi. Xərçənd puldan söhbət salmadı, amma üzü qırxılmamışdı. Bildim ki, pulu yoxdur. Məndə də pul yox idi. (Kor-peşman) Məyus getdi.

Qərəz, Məleykə qızların dərsini verib, onları yola saldı. Ondan sonra, otaqda ikimiz bir-birimizə baxa-baxa qaldıq. Məleykə deyirdi ki, bilmirəm, qızlar işi duydular, yoxsa başa düşmədilər. Mən heç vaxt istəməzdim ki, Moskva qohumlarımız bizim ehtiyacımızdan xəbərdar olsunlar. Sonra dedik ki, bayıra çıxıb həmi nahar yeməyə gedək, həmi də bir az gəzək ki, ürəyimiz açılsın.

Günorta saat 4 idi ki, bayıra çıxıb nahar yeməyimiz yerə gəldik. Qapıçı İvan bizi maşın ilə yuxarı qalxızdı. Amma əlacımız olsaydı - heç çörək yeməzdik. Çünki çoxdandır ki, Mariya Timofeyevnanın pulunu verməmişdik. Hərçənd bu arvad bizdən pul istəmirdi. Amma pula ehtiyacı olduğunu hərdən bir zurna ilə qandırırdı. O idi ki, yediyimiz çörək bizə ləzzət vermirdi. Ələlxüsus (osobenno) çörək yeyib qurtarandan sonra bilmirdim ki, nə təhər durub gedək ki, tez bu sıxıntıdan xilas olaq.

Qərəz, qapının zəngini vurduq. Qulluqçu Saşa qapını açdı. Mariya Timofeyevnanın əri (Potap Nikolayeviç) 60 yaşında cavan ayaqlarına konki geyib, uşaq kimi koridorda ora-bura gəzirdi. Bir (koye-kak) növ ilə naharı yedik. Arvad bizdən pul gözlədi. Amma əhvalımızdan pulsuzluğumuzu duyub çıxdı getdi bazara.

Nahardan sonra evə gəlmək istəmirdik, çünki bilirdik ki, ev sahibləri yenə pul istəyəcəklər. Dedik ki, əvvəl gedib qapıçımızdan xəbər alaq ki, poçtalyon gəlməmişdi. Hərgah gəlməmiş olsa, yenə Əliyevin yanına gedib, pul istəyək. Evə tərəf gəlib qapıçıdan soruşduq. Dedi ki, heç kəs gəlməmişdi.

Məyus geri qayıtdıq. Bir qədər şəhəri dolanmağa başladıq. Amma pulsuz şəhəri dolanmaq da bir şey deyildir. Gözünün qabağında hər nə istəsən var, amma cibində pul yox idi ki, alasan, bir tərəfdən də Moskvanın dilənçiləri dalımıza düşüb bizdən pul istəyirlər. Moskva dilənçisi kimi sırtıq dilənçi heç yerdə yoxdur desəm, qələt olmaz. Zəli kimi insana yapışırlar. Özləri də o qədərdilər ki, heç sayı-hesabı yoxdur. Tərs kimi, nə yanda dilənçi olsa, bizi görən kimi üstümüzə yüyürür. Bu cürə pulsuz və pərişan halımızda bir tərəfdən dilənçilər, bir tərəfdən faytonçular Baron, poyedem, bir tərəfdən gül satanlar ki, gülü adamın burnuna soxub kupite deyirlər, tamam əhvalımızı xarab etməkdədilər.

Bu minval (belə) dolanıb axırda qərar qoyduq ki, gedib Əliyevi tapıb, ondan pul istəyək ki, heç olmasa ev sahibinin ağzını yumaq. Məleykəyə dedim ki, gəl səni ötürüm evə, özüm gedim. Məleykəni evə ötürüb, yenə qapıçıdan poçtalyonu soruşdum. Dedi ki, heç kəs gəlməmişdi.

Tək qalıb, Əliyev olan küçəyə yollandım. Amma gedə-gedə öz-özümə fikir edirdim ki, mən ne təhər ondan pul istəyim. Utanıram. Hələ özünə də min manat borcluyam, qərəz, canımı qara-qara fikirlər almışdı. Tərs kimi, səhər çay içməyə nə qəndimiz, nə çörəyimiz var idi. Bu əsnada yanımdan şıdırğı ilə bir qara araba keçdi. Adamları qara geyimli, atları qara, hər yeri qara. Bu adamların bəziləri arabanın atına minib, atılıb düşə-düşə gedirdilər. Bu da mənə çox pis təsir

elədi. Canıma bir vahimə (qorxu) düşdü. Uğurum pis gəlibdir, - deyib istədim qayıdam. Amma sonra özümə ürək-dirək verdim ki, zərər yoxdur. Belə də olar, elə də olar.

Burada mənim yadıma Vaqnerin avtobioqrafiyası düşdü. Özümə təsəlli (sakitlik) verdim ki, onun kimi böyük bir zatın (şəxsin) pulsuzluq ucundan çəkdiyi əzablar və yaman günlər mənimkindən daha çətin idi. Mən heç olmasa bir yerdən pul gözləyirəm, amma o binəva (yazıq) Parisdə olarkən heç yerdən pul gözləməyib, arvadı ilə belə ac qalırdılar.

Yoluma davam edib Əliyevgilə gəldim. Amma Əliyevi evdə tapmadım. Geri qayıdıb tramvay stansiyasının birində oturdum və yorğunluğumu aldım. Oradan durub evə qayıtdım. Yenə şveytsardan əhval xəbər aldım. Dedi ki, heç kəs gəlməmişdi. Fikir etdim, evə gedim, yoxsa getməyim. Məleykə gözləyir ki, pul gətirəcəyəm. Amma pul yox. Dedim ki, qoy bir az gəzim ki, yatsınlar. Çünki saat 10 idi. Amma bu halda yadıma düşdü ki, bəlkə ev sahibi Məleykə ilə dalaşır, pis-pis sözlər deyir. Bu fikir məni evə tərəf yüyürtdü.

İçəri girib gördüm ki, Məleykə bikeyf oturubdur. Əhvalatı bilib daha bikef olduq. Tez qapını qıfıllayıb yatdıq ki, ev sahibi gəlməsin.

Qara-qara fikirlər nəticəsi olaraq, qarmaqarışıq yuxu görürdük və tez-tez yuxudan ayılırdıq. Səhər saat onda durduq. Durub məyus (peşiman) olduq. Çünki yenə pul gəlmədi. Ondan başqa qənd yox, çay var, çörək yox.

Ayın 11-dir. Sabah ev sahibinin köhnə ayı tamam olub, təzə ayı girir. Halbuki biz hələ köhnəsinin də pulunu verməmişik. Çöl qapısının zəngi vuruldu. Dedim, yəqin poçtalyon bizə pul gətirdi. Filhəqiqət (əslində) gördük qulluqçu içəri daxil olub, dedi ki, sizi bir kişi görmək istəyir. Mən tez çıxıb kişini görən kimi bildim kimdir. O da pul üçün gəlmişdi. Piano mağazasından kağız gətirmişdi. Yazılmışdı ki, Cənab Hacıyev, 2-ci dəfə sizi xəbərdar edirəm ki, pianonun vaxtı keçən ayın 19-da qurtarıbdır. İndiyə qədər pul verməyibsiniz. Hərgah bu gün pul göndərməsəniz, sabah adam göndərəcəyəm, gəlib pianonu aparsınlar. Bunun cavabında kişiyə yaxşı deyib yola saldım.

Gördüm Məleykə çox qayğıdadır ki, yenə ev sahibi gələcəkdir. Bu əhval mənə çox əsər (təsir) etdi ki, mən arvadımın rahatlığını pozuram və kişi ola-ola bir iş görə bilmirəm ki, pul gəlincə bu qədər korluq çəkməyək. Bu fikir ilə gedib ev sahibini çağırdım. Ona ciddi bir surətdə dedim ki, ayın 15-nə qədər bizi dindirməsin. Arvadının dünənki hərəkətini araya salıb, bir qədər də töhmət etdim. Kişi gördü ki, mənim halətim çox acıqlıdır. Bir az mır-mır edib dedi ki, gərək o halda 1 ayın pulunu verim. Qərəz, ev yiyəsinin bizi 5 gün dindirməyəcəyindən arxayın olub əhvalatı Məleykəyə söylədim. İndi də durduq çay fikrinə.

Əvvəllər elə günümüz olurdu ki, səhər çay içməyə çörəyimiz olmurdu. O halda biz çayı dişləmə içib nahar vaxtına qədər gözləyirdik. Amma indi qəndimiz daha yox idi, dişləmə içək. Evimizdə iki dənə süd butulkası var iki ki, ikisinin pulu 9 qəpik edirdi. Məleykə onları verib mənə dedi ki, get, heç olmasa bunların pulunu al və ya pulun yarısına qənd və yarısına çörək al. Mən hax-nahaq (istər-istəməz) butulkaları paltomun cibinə qoydum. Amma bilirdim ki, onların əvəzinə pul verməyəcəklər. Çünki adətən butulkanı verib, üstünə də pul qoyub təzədən süd almaq gərək idi.

Fikir etdim ki, bəlkə lombarda bir şey aparaq. Amma baxdıq ki, hər nə varsa hamısını qabaqca aparıb lombarda qoymuşuq. Məleykənin bütün qızıl və gümüş şeylərini, mənim skripkamı, sürtükumu, paltomu. Məleykənin yay paltosunu. Qərəz, heç bir şey yoxdur ki, lombarda aparmaq olsun.

Bu halda başıma bir fikir gəldi. Amma fikrimi Məleykəyə deməyib dedim ki, gedirəm. Sən çay qoydur, getdim. Mənim fikrim qapıçıdan pul istəmək idi. Qapıçını görüb soruşdum ki, poçtalyon pul gətirmədi? Dedi: yox. Dedim, eləsə, mənə 3 manat ver. Mən pul alanda, sənə 2 manat artıq verərəm. Qapıçı bir söz deməyib cibindən 5 manat çıxartdı və dedi ki, qalanını qaytararsan. Pulu cibimə qoyub gördüm ki, guya gözlərimə işıq gəldi.

Kəmali-cürət ilə (can ürəknən) bazara çıxıb qənd, çay, çörək, yağ aldım və bir qədər qəzet aldım. Tez qayıtdım. Məleykə samovarı hazırlayıb məni müntəzir idi (gözləyirdi). Aldığım şeyləri görüb təəccüb etdi. Amma pulu hardan aldığımı bilib, məyus oldu. Qərəz, çayı içdik. Mənim yadıma Mirzə düşdü. Şəmsi Əsədullayevin oğlu Mirzə məndən türk dərsi alırdı. Bir həftəlik dərsdən sonra mənə dedi ki, bir neçə gün dərs oxuya bilməyəcəm. Mən də dedim ki, o halda nə vaxt istəsəniz məni telefon ilə çağırarsınız. Bu əhvalatdan sonra 5-6 gün keçdi. Mirzə məni çağırmırdı. Həmin bu gün Mirzə yadıma düşüb dedim: Gedim görüm o daha dərs oxuyacaq, yoxsa yox.

Kontorlarına girib qapıçıdan soruşdum ki, Mirzəni görmək olarmı? Dedi ki, Mirzə çoxdan çıxıb Bakıya gedibdir. Mən təəccüb etdim. Dedim: Upravlyayuşiy necə? Dedi ki, bir qədər gözləyin, bu saat gələr.

Bir qədər gözlədim. Upravlyayuşiy Qarabağlı ağca Həsən bəyin oğlu Yusif bəy Vəzirov gəldi. Mənim ilə görüşüb dedi ki, Mirzə sizin üçün 15 manat pul qoyubdur. Adresinizi bilmirdim ki, göndərəm. Mən bu işə şad oldum. Bir qədər Yusif bəy ilə danışıb təvəqqe (xahiş) etdim ki, yer açılan kimi mənə bir qulluq versin. O da vədə verdi. 15 manat alıb sevinə-sevinə evə gəldim.

Məleykə daha çox sevindi. Dərhal qapıçının 3 manatını özünə verib dedim ki, 2 manat dəxi pul alanda verərəm. Sonra Məleykə xəbər verdi ki, onun böyük dayısı bizi sabah nahara qonaq çağırıbdır. İndi əlimizdəki pulu qənaət ilə xərcləyirdik ki, qurtarmasın (mabədi var). Bizdən cəmi ev əhlinə salam-dua.

Üzeyir. Moskva. 1912.

---

Ədəbiyyat və İncəsənət, 4 noyabr, 1988. N 45 (2336)